# Kültür və siyasət

tanımaqla mümkündür. yeni Özlüyünün bilicini əldə edib, Mən kiməm sorğusunu cəvablandirmaqdır.

Ziya Gökalp Törkçülüyün təmələri adlı kitabında yaşadığı zəmanda buna açıqlıq gətirməyə çalışır. Öz dünyasında kiçik bir turanında yaranmasını düşünür. Amma hər şeyin vaxtı və zəmanının olduğunuda unudmur. O bu arzusunu bir xiyal adlandırır. Həyata qovuşursa çox gözəl bir şeydir deyir. əlavə edir ki, bugünkü davamız Türkiyəçilikdir.

Hörmətli soydaşlarım!

Mən bugün dünya terorizminin qaynaq və mərkəzi olan Tehrandaki başı sarıqlı fars şovonistlərinin müstəmləkəsində sömürülən, yanıb –yaxılan 35 milyonluq Güney Ayərbaycan milləti adından çıxış edirəm. Mənim davam Ziya demişkən **Azərbaycançılıq** davasıdır. Türkçülük onun təməlində yatır. Güney ayərbaycan olmazsa türkçülükdə ola bilməz. Necə ki, 20 il bundan qabaq belə bir toplantının Bakıda keçirilməsi ağıla gələ bilməzdi.

Iran deyilən yerə gəldikdə bunu tam inamla deyirəm ki, bu yer yaşama həqaniyyətini itirmişdir. Bunu görmək istəmiyənlər, onun yaşamasına tərəfdar olanlar, belə cinayetkar rejimi ilə əmkdaşlıq edənlər , əsarətdə olan göney Ayərbaycan türk millətinin dostu sayıla bilməzlər.men Törkəm deme haqları da yoxdur.

Keçmişdə bizim süzdə solcularımızın ana xətalarından biri Nasiyonalist olmadan , internasiyonalist olmaları idi. Bir surətdəki, nasiyonalist yəni milliyətçi olamayan internasiyonalist olması imkansızdır. Mənim fikrimcə bu bugün biz Azərbaycanlılar üçündə keçərlidir. Azərbaycanlı olmayan, ayərbaycançılığı mənimsəməyən , azərbaycanın milli mənafeini düşünüb , qorumasını bacarmayan birisi türkçü ola bilməz. türkçülüyün təməli- payası azərbaycançılıqda yatır. Azərbaycan -lılığı söxdə yox əməldə qəbul edən, aynı zəmanda türkçüdür. Buna güredə Azərbaycanlı olduğuma ğurur duyuram , türklüyümə iftixar edirəm.

Bəli, kültür və mədəniyyət hər toplum üçün səciyyəvi karakter daşımaqdadır. Onun varlığını, kimliyini simqələyən onun milli kültürüdür. Keçmiş mədəniyyətidir. **Kiçik bir daş parçası, sınq bir saxsı öz çağının bir tarix kitabidir.** Toplumun o çağda ki kultur səviyyəsini, yaşama – düşüncə tərzini bizə anladır. Bu səbəbdən Arxioloqi çeşidli bilim sahələrini əhatə edir. hər təhqiqatçı- araşdırıcı öz sahəsiə ayid olan hissəni incələyir, tədqiq edir. bunlar bir birinin yanın qoyulduqda o dövrün haqinda umumi bir bilgi əldə edilir. **Buna görədə muzeylər hər millətin mədəniyyətinin canlı bilik arşivi sayıla bilər.** Yeri gəlmişkən burada bir xatirəni dilə gətirmək istərdim:

Mən soviyet dövrundə ilk dəfə olaraq quzey Ayərbaycanımızın paytəxti Bakıya gəldikdə məni Azərbaycanı -mızın çeşidli muzeylərinə aprdılar. O muzeylərdən biridə əlzazı fondu idi. O zəman oranın məsulu rəhmətlik Ziya Bunyadof idi. Mən bu muzeydə yüzlərcə millətimizin alim, zyazıçı, şair ve incə sənət xadimlərimizin gözəl naxışlı əsərlərinin şahidi oldum. Ziya bəylə danışdıqda soruşdum. Bu muzeyə çocuqlarımızda gəlilərmi? O təbii olaraq gəldiklərini bildirdi. Tikrar soruşdum, heç bunlari oxuy bilirlərmi? Bu naxış və təhziblərin haqınd bir şeylər əldə edə bilirlərmi? O cəvbında biz onlara deməyə çalışırıq dedi. Mən tikrar soruşdum, O zəman bu muzeylə Fəransanin Muzeyi arasinda olan farq nədir?! Məndə ora gedəndə, orada saxlanilan exponatlar haqında mənə açıqlamalar yapırlar. Bu sorğuy aydınlıq gətirmək üçün başqa bir sualda vermək zorunda qaldım. **Muzeyin mənası nədir? Gözəl şeylər kolleksiyonumudur?!!**

Onu rahatsız etməmək üçün cəvabını özüm verdim. **Hər millətin muzeyləri ilk başda o millətin canlı- danışan tarixidir. Keçmişinin gözgüsüdür.** Hər muzeyə girən yerli yaşlı və çocuq özünü orada dərk etməlidir. Geçmişini haqında bilgi qazanaraq ğururla oranı tərk etməlidir. **Muzeylər hər millət üçün tarix məktəbdir.** Sonra əlavə olraq çocuqlarımızın gözlərini bu Kiril əlifbası ilə kor edən , millətimizə təhmil edənlərin qəbirləri odunan dolsun, dedim....

Bəli bu bir gərçəkdir- həqiqətdir. Muzey bir millətin tarix gözgüsüdür. Təəsuflə Azərbaycanımızda bu canlı tarixə olduğu qədər dəyər verilmir. Hətta bu gün vətənimin mustəqil olmuş bu tayında lazimi qədər işlər görülməmişdir. əksinə bəzi özümüzdən olub para düşgünü nazirlərin əli ilə xaricinə çıxarılaraq satılmışdır. Bir surətdəki bu keçən 18 illik müstəqillik dövründə bir çox işlər görülə bilərdi.

Təssüflə keçmişlərdə vətənimiz Azərbaycanın qimətli tarixi əsərləri başqa ölkələrə daşınmışdır. Petersburqa ,məskova,amerika,ingilistana, Fəransa-ya, almana, ispaniya və başqa ölkələrə aparılmışdır. Bu ölkələrin muzey -lərində, kitabxanalarında və xisusi koleqsiyonlarda saxlanılmaqdadır. Bu əsərlərin haqinda bir kitabda hazırlan-mamışdır.Buna sevinmək lazimdir ki, güney azərbaycanımızin əsərlərinin bir bölümü əmanət olaraq qardaş Türkiyənin Top qapı muyezində və başqa muzey və kitabxanalarında saxlanılmaqdadır. Ümid edirəm ki bir gün Vahid- bütövləşmış müstəqil və demokratik Azərbaycanımızın milli muzəsinə geri qaytarılsınlar.

Bu milli və tarixi əsərlərin bir bölümündə bizim öz manqut və cahil ,çıxar və para peşində olanların vasitəsilə çıxarılır. Tariximizin o səhifəsi yox edilir.tarixi qaynaq dağıdılır və bir neçə qırana(quruşa) satılır. Ölkədən çıxarılır.

Belə özümüzdən olanların kor cəhalətləri üzündən özləri öz tarixlərini, mıllı varlıqlarının sənəd-lərini yox edirlər. Belə insanlara ar olsun. Başqaları, vətən qayğısına

آردي ۴ـ نجي یاپراقدا(صحیفه ده)

## باشيني قارا قۇيلايان قارداشلار!

## Başını qara quylayan qardaşlar!

برابریدیر. بۇ کۇرد عائله‌لری غربی آذربایجانین خوْي، ماکۇ، سلماس، اۇرۇمیه ۇ سۇلدۇز سوْیۇق بۇلاق وه شردشتینده یئرلشمیشلر. ایران دئییلن میللتلر دۇسداغیندا سوزده آپاریلان قوْندارما سئچگینلرده بۇ قاچقینلاردا ایشتیراک ائدیرلر، حتا سئچگی گونو رئژیم طرفیندن سس وئرمک اوچون بۇ شهرلره گتیریب، عمدی اوْلاراق بۇ منطقه لردن کۇردلردن میللت وکیلی!!! سئچدیریرلر. تورکیه‌نین شرقینده وه بۇ منطقه‌ده بۇ ائتنیک دمیشیکلیکلره عراقدا قوْرۇلان کۇردۇستان خوْدموختار رئژیمیده حمایت ائتمکده‌دیر. انگیلیس وه تئروْریست تئهران وه ائرمنی جانیلری‌نین سیاستی گئت ـ گئده حیاتا کئچیریلیر. بۇگون آدي کئچن شهرلرین اطرافینداکی کندلرده کۇردلشدیریلمیشدیر. سوْیۇق بۇلاقدا وه سردشت دیده یوزده ۸۰ کۇرد کوچرلی‌سی ایسکانلاشمیشدیر. ائله گورونور کی بیزیم سوْیداشلاریمیز، خصوْصن تورکیه دوْولتي باشینی قارا قۇیلامیشدیر. اوز یالنیش سیاستلری نتیجه‌سینده، مسئله‌نین اۇزۇن وعده‌لی نتیجه‌سینی نظره آلمادان عملده اینگیلیس ـ ایران وه ائرمنی سیاستینی ایجرا ائدیرلر. بیز گونئي آذربایجانلیلار بۇ سوْیداشلاریمیزین داخیلی وه خاریجی سیاستلرینده سوْنرالیقدا حلی موشکول اوْلان بۇ پروْبلمی‌ده نظره آلماغا چاغیریریق. عراقدا اوْلان خطاسی کافیدیر. بۇ اوْلوْشان پروْبلمه لاقئید یاناشماق تورکلویه وه تورک دونیاسینا خیانت ساییلیر. آذربایجانلیادا دال چئویرمک معناسینا گلیر.